**Həftənin rəqəmi: 1 milyard 47 milyon 483,5 min manat**

2012-ci ilin yanvar-fevral aylarında Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 1 milyard 47 milyon 483,5 min manat təşkil etmiş, proqnoz tapşırıqları artıqlaması ilə yerinə yetirilmişdir. Vergi daxilolmalarının 39,6%-i mənfəət vergisinin, 26,5%-i əlavə dəyər vergisinin, 11,4%-i fiziki şəxslərin gəlir vergisinin, 6,7%-i aksizlərin, 15,8%-i isə digər vergilərin payına düşür.
Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 571 milyon 657,5 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkinə nisbətən 32,6% çoxdur.
Yanvar-fevral aylarında respublika üzrə qeydiyyatdan keçmiş vergi ödəyicilərinin ümumi sayı 13 min 103, 2011-ci ilin iyul ayının 1-dən cari ilin mart ayının 1-dək elektron qaydada qeydiyyata alınmış fiziki şəxslərin sayı 17 min 896 olmuşdur. 1 mart 2012-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 431 min 628 olmuşdur.
2012-ci ilin yanvar-fevral ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 92,2% təşkil etmişdir.